# Novruz bayramı Qəbələdə geniş qeyd olunmuşdur







***Xalqımızın xeyirxahlıq, oyanış, dirçəliş, əməksevərlik kimi gözəl hisslərini tərənnüm edən və ruzi-bərəkət rəmzi olan bahar ətirli Novruz bayramı Qəbələdə geniş qeyd olunmuşdur.***

***Şəhərin Heydər Əliyev Parkında təşkil olunmuş izdihamlı bayram şənliyində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, icra hakimiyyəti aparatının əməkdaşları, idarə, müəssisə və təşkilatların kollektivləri, rayon ictimaiyyəti iştirak etmişdir.***

Novruz bayramının gəlişi ilə əlaqədar Bahar qız mərasimin bütün iştirakçılarını təbrik edib. Sonra ənənəyə uyğun olaraq tonqal yandırılıb. Tədbirdə Keçəl, Kosa və digər Novruz personajları xalqımızın qədim folklor nümunələrini tamaşaçılara təqdim edib.

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev şənlik iştirakçılarını və bütün qəbələliləri bayram münasibətilə təbrik etmişdir.

Təbrik nitqində ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra xalqımızın bir çox adət-ənənələrinin, bayramlarının yenidən bərpa edildiyi qeyd olunmuş, onun milli mənəvi dəyərlərimizə həmişə böyük hörmətlə yanaşdığı, adət-ənənələrimizin qorunub saxlanmasına daim diqqət və qayğı göstərdiyi vurğulanmışdır. Eləcə də Novruz bayramının ölkəmizdə rəsmi qaydada keçirilməsinin məhz ulu öndərin adı və onun vətənpərvər, millətsevər fəaliyyəti ilə bağlı olduğu diqqətə çatdırılmış, bu qədim bayramın cəmiyyəti xeyirxahlığa səslədiyi, sabaha inam hissini artırdığı, nəcib əməllərə və fədakar əməyə çağırdığı qeyd olunub.

Şənlik folklor nümunələrinin nümayişi ilə davam etdirilib, incəsənət ustaları tərəfindən xalqımızın adət-ənənələri, ayin və mərasimləri canlandırılıb. Rəqqaslar milli musiqinin sədaları altında oynaq rəqslər ifa edib, məktəblilər şeir oxuyub, idmançılarımız məharətlərini nümayiş etdiriblər.














Tədbir iştirakçıları bayram münasibətilə parkda təşkil olunmuş yerli inşaat materiallarından, sənaye məhsullarından, xalçaçılıq və toxuculuq məmulatlarından, təbiqi və təsviri incəsənət nümunələrindən ibarət sərgilərə baxmış, xalq sənətkarlarının böyük ustalıqla hazırladıqları əl işləri ilə tanış olmuşlar. Corab toxuyan, yun darayan, cəhrə əyirən, nehrə çalxalayan, sac üzərində yuxa bişirən milli geyimli xanımlar qədim el sənətkarlığını bir daha yada salmışlar.

Teatrlaşdırılmış meydan tədbirində ənənəyə uyğun olaraq qalanmış tonqalın ətrafında xalqımızın qədim adət və ənənələri, ayin və mərasimləri Novruz personajları tərəfindən canlandırılmışdır. Bum qəsəbə mədəniyyət evində yaradılan "Zopu-zopu" Folklor Etnoqrafik Rəqs Ansanbılı, Nacılılı kənd mədəniyyət evinin "Gülüstan" Folklor Qrupu və digər bədii kollektivlər milli folklor nümunələrimizi böyük ustalıqla nümayiş etdirmişlər. Tədbir iştirakçıları Novruz şirniyyatına qonaq ediliblər. Keçəl və Kosanın şən zarafatları insanların üzündə təbəssüm yaradıb.

Novruz şənliyi kütləvi çalçağırla başa çatmış və qəbələlilərə əsl bayram əhval-ruhiyyəsi bəxş etmişdir.

***«Qəbələ».***

## *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN APREL AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Zirik kəndi | 04.04.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Daşca kəndi | 11.04.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Savalan kəndi | 18.04.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Nic qəsəbəsi | 25.04.2017 | Qəsəbə məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.